**Azərbaycan Tibb Universiteti**

**Təhsil fəaliyyətinin gigiyenası**

Fənni üzrə

İŞÇİ TƏDRİS PROQRAMI

(SİLLABUS)

**"TƏSDİQ EDİRƏM**

**"Uşaq -yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı"** kafedrasının müdiri:

dos. Ş.M.Balayeva

İmza _______________

**FƏNNİN KODU:** İPF-B56

**FƏNNİN NÖVÜ:** məcburi

**FƏNNİN TƏDRİS SEMESTRİ:** V kurs - IX semestr

**FƏNNİN KREDİTİ:** 4 kredit

**FƏNNİN TƏDRİS FORMASI:** əyani

**FƏNNİN TƏDRİS DİLİ:** azərbaycan, rus

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR:**

t.e.n., dos. Ş.M. Balayeva

t.e.n., dos. N.Q.Süleymanzadə

t.e.n., dos. S.Ə.Həsənova

t.e.n., dos. Z.Q.İsmayılova

ass. İ.İ.Mustafayeva

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏSİ:** **012 595-30-14**

**E.mail:** **department_cahoh@amu.edu.az**

**PREREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn: Uşaq və yeniyetmələr gigiyenasının əsasları.

**KOREKVİZİTLƏR:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

**KURSUN TƏSVİRİ:**

Bu fənn təlim- tədris proseslərinin, müxtəlif tədris amillərinin uşaq və yeni-yetmələrin sağlamlığına və onların iş qabiliyyətinə təsirini, təhlükəsiz təhsil şəraiti yaratmaq, sağlamlığı qorumaq, yorğunluğun qarşısını almaq üçün lazım olan tədbirləri öyrənməklə məşğul olur.

**KURSUN MƏQSƏDİ:**

Fənnin əsas məqsədi: təlim-tərbiyə prosesinin uşaq və yeniyetmə orqanizminə təsirini, tədris zamanı orqanizmdə baş verən dəyişiklikləri fizioloji müayinə üsulları ilə aşkar etməkdən, uşaq və yeniyetmələrin tədris prosesi zamanı iş qabiliyyətini uzun müddət yüksək səviyyədə saxlamaq və onlarda yorulmanın qarşısını almaq üsullarını öyrənməkdən ibarətdir.

**KURSUN NƏTİCƏLƏRİ:**

Fənnin mənimsənilməsi nəticəsində tələbələr əqli və fiziki iş qabiliyyəti, şagird orqanizminin funksional vəziyyətinin (korrektur sınaqları, xronorefleksometriya, erqoqrafiya və b.) qiymətləndirilməsi, tədris yükü və dərs cədvəlinin təhlili, politexniki təmayüllü dərslərin və onların keçirilmə şəraitinin gigiyenik qiymətləndirilməsini bacarmalı, orqanizmin möhkəmləndirilməsinin təyini, həmçinin xronometraj və dərs təşkilinin təhlili üsullarına yiyələnməlidir.

**FƏNNİN MÜHAZİRƏ MÖVZULARI:**

| № | Mövzu | Saat |
|---|---|---|
| 1 | Fəaliyyətin normallaşdırılmasının gigiyenik prinsipləri və müxtəlif yaşlı uşaqların gün rejiminin gigiyenik əsasları. Məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinin gigiyenası.<br>***Predmet:*** *Fəaliyyət böyümə və inkişafın, sağlamlığın möhkəmləndirilməsi amili kimi, fəaliyyətin normalaşdırılmasının gigiyenik əsasları. Uşaqlarda yaşdan asılı olaraq ali sinir fəaliyyətinin xüsusiyyətləri. Gün rejiminin fizioloji əsasları. Yorğunluğun fizioloji mahiyyəti, müxtəlif yaş qruplarında onun xüsusiyyəti. Dinamiki stereotipli.* | 2 |
| 2 | Məktəbdə tədris prosesinin gigiyenik əsasları. Müxtəlif məktəb yaşlı uşaqların tədris günü, həftəsi və ilinin təşkilinin gigiyenik əsasları<br>***Predmet:*** *Tədris müəssisələrində təlim - tərbiyə prosesinin gigiyenik əsasları. Yorğunluğun fizioloji mahiyyəti, müxtəlif yaş qruplarında onun xüsusiyyəti. Əqli iş qabiliyyəti. Orqanizmin bioloji ritimlərinin iş qabiliyyətinə təsiri.Tədris günü, həftəsi, ilinin təşklinin gigiyenik əsaslandırılması. Ayrı-ayrı fənnləri dərindən öyrənən məktəblərdə tədrisin təşkili. Texniki tədris vəsaitləri tətbiqinin gigiyenik əsasları. Ev tapşırıqların hazırlanmasına olan gigiyenik tövsiyyələr.* | 2 |

| | | |
|---|---|---|
| 3 | Tədrisə fünksional hazırlığın təyini. Kompüterdən istifadə zamanı tədris prosesinin təşkilinə olan gigiyenik tələblər.<br>**Predmet:** *Tədrisə funksionla hazırlıq. "Məktəb yetkinliyi" probleminin gigiyenik məsələləri. Məktəbdə 6 yaşlı uşaqların tədris prosesi təşkilinin gigiyenik prinsipləri. İbtidai sinifdə tədrisin gigiyenik əsasları; I sinifdə pilləvari rejimli tədris. Dərs sürəkliyi və onun qurulmasının gigiyenik əsaslandırılması. Tədrisin kompüterləşməsinin gigiyenik əsasları Tədris müəssisələrində kompüter siniflərinin yerləşməsinə olan tələblər Kompüter otaqlarında təsir edən əsas fiziki amillər Kompüterlərdən istifadə zamanı tədris prosesinin təşkilinə olan gigiyenik tələblər.* | 2 |
| 4 | Məktəbdə əmək, politexniki və peşə təliminin gigiyenik əsasları, tədris istehsalat prosesinin təşkilinə olan gigiyenik tələblər. Peşə yönümünün tibbi-profilaktiki məsələləri, şagirdlərin həkim-peşə məsləhəti və peşə seçimi.<br>**Predmet:** *Əmək və politexniki təliminin gigiyenik və fizioloji əsasları Məktəbəqədər müəssisələrdə və ümumtəhsil məktəblərində əmək tərbiyəsi və onun təşkilinə gigiyenik tələblər. Tədris cədvəlində əmək dərsləri bölgüsünün gün və həftəlik iş qabiliyyətinə təsiri.Uşaq və yeniyetmələrin ictimai-yararlı əməyinin təşkilinə olan gigiyenik tələblər. Yeniyetmələrin həkim-peşə məsləhəti. Peşəyə tibbi göstəriş və əks göstəriş anlayışı. Peşənin sanitar səciyyəsi. Peşə yararlığının psixofizioloji meyarları..* | 2 |
| 5 | Uşaq və yeniyetmələrin fiziki tərbiyəsinin gigiyenası. Uşaq və yeniyetmələrin möhkəmləndirilməsinin fizioloji-gigiyenik xüsusiyyətləri, onun təşkilinin prinsipləri.<br>**Predmet:** *Fiziki tərbiyənin fizioloji əsasları. Yaş və cinsdən asılı olaraq və istehsalat təlimi üzərində tibbi nəzarət hərəkətə olan bioloji tələbat. Fiziki tərbiyyənin vasitə və formaları. Uşaq və yeniyetmələrin sağlamlıq vəziyyətinə və somatik inkişafına fiziki tərbiyyənin təsiri. Hərəki fəallıq onun yaşdan asılı olaraq normalaşdırılması. Uşaq və yeniyetmələrdə hipodinamiya. Fiziki tərbiyə üzərində həkim nəzarəti. Fiziki tərbiyə qrupları. Möhkəmləndirmənin fizioloji mahiyyəti.* | 2 |

**Cəmi:** **10 saat**

## FƏNN ÜZRƏ PRAKTİK MƏŞĞƏLƏ MÖVZULARI:

| № | Mövzuların adı | Saat |
|---|---|---|
| 1. | Məktəbəqədər müəssisələrdə tərbiyə-sağlamlaşdırıcı tədbirlərin təşkili<br>**Predmet:** Məktəbəqədər müəssisələrdə təlim tərbiyə prosesinin gigiyenik qiymətləndirilməsi | 2 |
| 2 | Məktəbəqədər müəssisələrdə gün rejiminin təhlili ( qidalanma, yuxu, gəzinti və s.) və gigiyenik qiymətləndirilməsi<br>**Predmet:** *MÜM gün rejiminin təhlili və qiymətləndirilməsi. Nəticənin tərtibi. Sağlamlaşdırıcı təkliflər.* | 2 |
| 3 | Ümumtəhsil məktəbində tədris prosesinin təşkili və gigiyenik qiymətləndirilməsi. Yorğunluq və ifrat yorğunluq | 2 |

| | | |
|---|---|---|
| | ***Predmet:*** *tədris prosesinin təşkilinin gigiyenik əsasları.* Yorğunluq və ifrat yorğunluğun tədris prosesinə, dərs mənimsəməsinə, iş qabiliyyətinə təsiri (sitasiya məsələsi) | |
| 4 | Fəaliyyətin xarakteri və davametmə müddətinin təyini, fərdi və kütləvi xronometraj<br>***Predmet:*** *Fəallığın təyini. Fərdi və kütləvi xronometraj. Nəticənin tərtibi. Sağlamlaşdırıcı təkliflər.* | 2 |
| 5 | Ümumtəhsil məktəblərində anket üsulu ilə gün reyiminin qiymətləndirilməsi<br>***Predmet:*** *Müxtəlif yaşlı sinif şagirdlərinin anket vasitəsi ilə gün reyiminin təhlili və qiymətləndirilməsi. Nəticənin tərtibi. Sağlamlaşdırıcı təkliflər.* | 2 |
| 6 | Uşaq və yeniyetmə orqanizminin funksional vəziyyətinin tədqiqat üsulları<br>***Predmet:*** *Korrektur cədvəllə iş qabiliyyətinin təyin. Rəqəm axtarışı üsulu ilə diqqət davamlığının qiymətləndirilməsi. Nəticənin tərtibi.* | 2 |
| 7 | Texniki tədris vasitələrindən istifadə zamanı tədris prosesinin təşkilinə olan gigiyenik tələblər (sitasiya məsələsi)<br>***Predmet:*** *Tədris günü ərzində məşğələlərin optimal sayı. TTV-dən istifadə zamanı tədris prosesinin təşkilinə olan gigiyenik tələblər* (sitasiya məsələsi). | 2 |
| 8 | Kompüterlə fasiləsiz məşğələ müddəti. Kompüter otaqlarının işıqlanması və hava istilik rejimi<br>***Predmet:*** *Kompüterlə fasiləsiz məşğələnin orqanizmə təsiri və qiymətləndirilməsi, kompüter otaqlarında fiziki amillərin sağlamlığa təsirinin qiymətlədirilməsi* (sitasiya məsələsi). | 2 |
| 9 | Dərs cədvəllərinin tərtibinə olan gigiyenik tələblər<br>***Predmet:*** dərs cədvəlinin tərtibi zamanı müxtəlif fənlərin səmərəli növbələşdirilməsi. İş qabiliyyətinin dəyişməsinə müvafiq olaraq fənlərin cədvəldə yerləşdirilmə qaydası | 2 |
| 10 | Dərs cədvəllərinin gigiyenik qiymətləndirilməsi<br>***Predmet:*** Dərs cədvəlinin gigiyenik qiymətləndirilməsi üçün fənlərin çətinlik cədvəlindən (İ.Q.Sivkovun və V.İ .Aqarkovun cədvəlləri) istfadə etməklə siniflər üzrə cədvəlin təhlili və qiymətləndirmə. Gündəlik və həftəlik dərs yükü ballarının hesablanması. Qrafik təsvir və. *nəticənin tərtibi.* | 2 |
| 11 | Uşaqların məktəb tədrisinə morfofunksional hazırlıq səviyyəsinin təyini (tibbi kriteriyalar)<br>***Predmet:****Tibbi müayinənin aparılma etapları və məqsədi. Tibbi meyarlar, tibbi əksgöstərişlər, nəticənin tərtibi.* | 2 |
| 12 | Uşaqların məktəb tədrisinə morfofunksional hazırlıq səviyyəsinin təyini (psixofizioloji kriteriyalar) Tibbi və psixofizioloji kriteriyaların nəticələrinin kompleks qiymətləndirməsi<br>***Predmet:*** *Kern-İrasek testinin, nitqin səlisliyinin və motometrik gösrəricilərinə qiymətləndirmə qaydaları, nəticənin tərtibi. Situasion məsələ həlli və uşağın məktəb yetginliyi barədə rəyin verilməsi.* | 2 |
| 13 | Ümumtəhsil məktəblərində 6 yaşlı uşaqların təlim-tərbiyəsinin təşkili, fəaliyyətlərin düzgün növbələşdirilməsi (sərbəst iş).<br>***Predmet:*** *6 yaşlı uşaqların təlim-tərbiyəsinin təşkilinin gigiyenik qiymətləndirilməsi:dərsin təşkili, fəaliyyətlərin düzgün növbələşdirilməsi* | 2 |

| | | |
|---|---|---|
| | *müşahidə aparmaq. Nəticənin tərtibi. Sağlamlaşdırıcı təkliflər.* | |
| 14 | 6 yaşlı uşaqların təlim-tərbiyəsinin təşkilinin gigiyenik qiymətləndirilməsi (sərbəst iş).<br>***Predmet:*** *6 yaşlı uşaqların təlim-tərbiyəsinin təşkilinin gigiyenik qiymətləndirilməsi: müşahidə aparmaq. Aktin tərtibi. Sağlamlaşdırıcı təkliflər.* | 2 |
| 15 | Uşaq və yeniyetmə müəssisələrində fiziki tərbiyənin təşkilinin gigiyenası. Fiziki tərbiyə üzərində həkim nəzarəti<br>***Predmet:*** Sağlamlıq vəziyyəti və fiziki inkişafına görə fiziki tərbiyə qruplarının yaradılma qaydası, icazə verilən fiziki yük və fiziki tərbiyənin təşkili | 2 |
| 16 | Orqanizmin funksional fiziki hazırlığının tədqiqat üsulları və gigiyenik qiymətlədirilməsi<br>***Predmet:*** *1. Letunov, Ortostatık və Ştanqe sınağı vasitəsilə orqanizmin funksional fiziki hazırlığının tədqiqi və quymətləndirmə.* | 2 |
| 17 | Orqanizmin fiziki hazırlığının kompleks qiymətləndirilməsi<br>***Predmet:*** *Fiziki keyfiyyət göstəricilərinin qiymətləndirilməsi. Yaşa müvafiq normativlərdən istifadə etməklə situasion məsələ həlli. Nəticənin qiymətləndirilməsi.* | 2 |
| 18 | Uşaq - yeniyetmələrin möhkəmləndirilməsi və təşkili.<br>***Predmet:*** möhkəmlənmənin fizioloji mahiyyəti, möhkəmləndirmənin şərtləri, möhkəmləndirmə prosedurları və istifadə qaydaları | 2 |
| 19 | Ultrabənövşəyi şüa çatışmazlığının profilaktikası, biodozanın təyini<br>***Predmet:*** *ultrabənövşəyi şüalanma sxeminin tərtibi, biadozanın təyini, situasion məsələ həlli.* | 2 |
| 20 | Orqanizmin fiziki möhkəmliyinin təyini üsulları<br>***Predmet:*** *bədənin möhkəmlik dərəcəsinin qiymətləndirilməsi, labillik və keyfiyyət göstəricisinin qiymətləndirilməsi, dərinin orta asılı hərarətinin təyini, termoassimetriyanın müayinəsi, situasion məsələ həlli. Nəticənin qiymətləndirilməsi.* | 2 |
| 21 | Həkim peşə məsləhətin aparılması üsulları<br>***Predmet:*** *yeniyetmələrin peşə yararlığının təyini, situasion məsələ həlli. Nəticənin qiymətləndirilməsi. yeniyetmənin peşə yararlığı barədə rəyin verilməsi.* | 2 |
| 22 | Yeniyetmələrin peşə yararlığının təyini<br>***Predmet:*** *yeniyetmələrin peşə yararlığı, nəticənin qiymətləndirilməsi. yeniyetmənin peşə yararlığı barədə rəyin verilməsi.* | 2 |
| 23 | Yeniyetmələrin peşə yararlığının psixoloji meyarlarının tədqiqat üsulları<br>***Predmet:*** *psixoloji meyarlarının tədqiqi, situasion məsələ həlli. Rəyin verilməsi.* | 2 |
| 24 | Yeniyetmələrin peşə yararlığının fizioloji meyarlarının tədqiqat üsulları<br>***Predmet:*** fizioloji *meyarlarının tədqiqi, situasion məsələ həlli. Rəyin verilməsi.* | 2 |
| 25. | Uşaq və yeniyetmə müəsisələrində həkim pediatorun işinin təşkili<br>***Predmet:****həkimin funksiyaları, uşaq və yeniyetmələrə göstərilən tibbi xidmət,* | 2 |

| | | |
|---|---|---|
| | *dispanser müşahidə və sənədlərlə tanışlıq* | |

**Cəmi: 50 saat**

Fənnin bütün mövzuları üzrə nümunəvi testlər elektron variantda hazırlanır və Universitetinin rəsmi www. amu.edu.az saytında yerləşdirilir.

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə kredit üçün lazımi 100 balın toplaqnması aşağıdakı kimi olacaq:
50 bal-imtahana qədər
O cümlədən:
10 bal- dərsə davamiyyət
10 bal- sərbəst iş
10 bal - bacarıqlar
20 bal- seminar dərslərindən nəzəri biliklərdən toplanacaq ballardır.
50 bal- imtahanda toplanılacaq.

Imtahan test üsulu ilə keçiriləcəkdir, tələbələrə 50 test verilir. Sualdan ibarət olacaqdır. Hər bir test bir balla qiymətləndirilir. Səhv cavablanan test düzgün cavablardan yığılan ballardan silir.

**QEYD:**

Imtahanda minimum 17 bal toplanmasa, imtaha qədər yığılan ballar imtahan balı ilə toplanılmayacaq. Imtahanda 17 və yuxarı bal, imtahana qədər toplanan ballarla cəmlənir və yekun nəticə aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” -91-100
B - “Çox yaxşı” -81-90
C - “Yaxşı” -71-80
D - “Kafi” -61-70
E - “Qənaətbəxş” -51-60
F - “Qeyri kafi” -51 baldan aşağı

**SƏRBƏST İŞ:**

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi bir balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğu görə plagiat yol verilməzdir.

**SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ**

| №-si | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Fəaliyyətin normallaşdırılmasının gigiyenik prinsipləri. Müxtəlif yaşlı uşaqların gün rejiminin gigiyenik əsasları. Məktəbəqədər yaşlı uşaqların təlim və tərbiyəsinin gigiyenası. | 4-cü həftə |

| | | |
|---|---|---|
| 2 | Ümumtəsil məktəblərində tədris prosesinin gigiyenası. Orta peşə-texniki məktəblərdə əsasları. | 5-ci həftə |
| 3 | Yaşdan asılı olaraq sinifdən kənar işin gigiyenik normalaşdırılması.Tədris və tədrisdən kənar vaxtda, istirahət günü və tətillərdə istirahətin təşkilinə olan gigiyenik tələblər. | 6-cı həftə |
| 4 | Orqanizmin funksional vəziyyətinin və iş qabiliyyətinin tədqiqat üsulları. | 7-ci həftə |
| 5 | Əmək, politexniki və istehsalat təliminin gigiyenik əsasları. Məktəbəqədər müəssisələrdə əmək tərbiyəsi və onun təşkilinin gigiyenik şəraiti. | 8-ci həftə |
| 6 | Şagirdlərin əmək və politexniki təliminin gigiyenik və fizioloji əsasları. | 9-cu həftə |
| 7 | Müxtəlif təmayüllü orta peşə-texniki məktəblərində tədris-istehsalat prosesi təşkilinin gigiyenik prinsipləri. | 10-cu həftə |
| 8 | Peşə yönümünün tibbi-profilaktiki məsələləri, şagirdlərin həkim-peşə məsləhəti və peşə seçimi. | 11-ci həftə |
| 9 | Uşaq və yeniyetmələrin fiziki tərbiyəsinin gigiyenası.Fiziki tərbiyyənin fizioloji əsasları. | 12-ci həftə |
| 10 | Fiziki tərbiyyənin vasitə və formaları. | 13-cü həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

**KURS İŞİ:** Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulur.

## TƏHSİL FƏALİYYƏTİNİN GİGİYENASI FƏNNİ ÜZRƏ BACARIQLARIN SİYAHISI.

| **№** | **Bacarıq** | **Bal** |
|---|---|---|
| 1 | Məktəbəqədər uşaq müəssisələrinin böyük yaş qrupunda gün rejiminin gigiyenik qiymətləndirilməsi və nəticənin verilməsi. | 3 |
| **2** | Ümumtəhsil məktəblərdə dərs cədvəllərinin gigiyenik qiymətləndirilməsi və nəticənin tərtibi. | 4 |
| **3** | Orqanizmin funksional vəziyyətinin qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| | Cəmi: | 10 |

## TƏHSİL FƏALİYYƏTİNİN GİGİYENASI FƏNNİ ÜZRƏ BACARIQLARIN SİYAHISI (rəhbərlik)

| № | Bacarıq | Bal |
|---|---|---|
| 1 | Məktəbəqədər uşaq müəssisələrinin böyük yaş qrupunda gün rejiminin gigiyenik qiymətləndirilməsi və nəticənin verilməsi. | 3 |
| 2 | Ümumtəhsil məktəblərdə dərs cədvəllərinin gigiyenik qiymətləndirilməsi və nəticənin tərtibi. | 4 |
| 3 | Orqanizmin funksional vəziyyətinin qiymətləndirilməsi və rəyin verilməsi | 3 |
| | Cəmi: | 10 |

## Metodiki təminat


1. Əliyev V.Ə. "Uşaq və yeniyetmələr gigiyenası". Dərslik. Bakı - 1995.
2. Gürzəliyev S.A., Məmmədova Z.B., Süleymanzadə N.Q., Həsənova S.Ə., Balayeva Ş.M., İsmayılova Z.Q. "Uşaq və yeniyetmələr gigiyenası". Təcrübə məşğələsi, Bakı – 2010.
3. Məmmədov A.M. "Uşaq və yeniyetmələr gigiyenası". I – II hissə tədris vəsaiti, Bakı - 1986.
4. Сердюковская Г.Н., Сухарев А.Г. "Гигиена детей и подростков" руководство для санитарных врачей. М. - 1986.
5. Кардашенко В.М. "Гигиена детей и подростков". Практический занятия. М. - 1983.
6. Кардашенко В.Н. "Гигиена детей и подростков". М. - 1988.
7. Кучма В.Р. "Гигиена детей и подростков", М. – 2001.